# İkinci Qarabağ müharibəsi torpaqlarımızın işğaldan azad edilməsi




**1990-cı ildən başlayaraq erməni qanunsuz silahlı dəstələri Azərbaycanın ərazilərini işğal etməyə başlamışdılar. O zaman bu separatçı rejim 20%-dən artıq torpaqlarımızı işğal etmişdi. Bunun ən böyük səbəblərindən biri qüvvələr arasında bərabərsizlik və o zamankı, hakimiyyətin məsuliyyətsizliyi idi. Məhz bu səbəblərdən Azərbaycanın qədim diyarı olan Qarabağ işğal edildi. Bunlar azmış kimi tarixə nəzər salsaq, görərik ki, hələ 1988-ci ildən Ermənistandan qovulanlar da, daxil olmaqla azərbaycanlıların başına vandal ermənilər min bir oyunlar açmışlar. Onlardan ən dəhşətlisi isə Xocalı faciəsidir.**

Gəlin 26 fevral tarixini bir daha nəzərdən keçirək. Həmin tarixdə Xocalı əhalisindən - 613 nəfər öldürülmüş, 487 nəfər şikəst olmuş, 1275 nəfər dinc sakin - qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqir və həqarətlərihə məruz qalmışlar. 150 nəfərin taleyi hələ də məlum deyil.

Bu əsl soyqırım idi. Xocalıda öldürülmüş 613 nəfərdən 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri qoca olmuşdur.

Xocalı faciəsində 8 ailə bütövlükdə məhv edilmiş, 24 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir.

Bu cinayətdə 56 nəfər xüsusi qəddarlıqla və amansızlıqla qətlə yetirilmişdir. Onlar diri-diri yandırılmış, başları kəsilmiş, üzlərinin dərisi soyulmuş, körpə uşaqların gözləri çıxarılmış, süngü ilə hamilə qadınların qarınları yarılmışdır. Ermənilər, hətta meyitləri də təhqir etmişlərg

Mən hələ o birisi faciələrdən danışmıram. Bu faciələrdən danışmağa günlər belə kifayət etməz.

O zaman bizim ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra sanki ölkəmiz yenidən canlandı. Heydər Əliyev əsaslı şəkildə Azərbaycan ordusunda islahatlar həyata keçirdi. Hərbi kadrların xaricdə təhsil alması üçün əlindən gələni etdi və nəticədə o zamandan etibarən Azərbaycanda peşəkar zabitlər formalaşdı. Təsadüfi deyil ki, C.Naxçıvanski adına Hərbi Liseyin ilk məzunları olan zabitlər Azərbaycan müstəqilliyini bərpa edəndən sonra ordu quruculuğunda əsas bazalardan birinə çevrildi.

1994-cü il mayın 12-də Ermənistanla atəşkəs haqda müqavilə imzalandıqdan sonra Azərbaycanda ordu quruculuğu daha da sürətləndi, həyata keçirilən siyasət nəticəsində Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı.

Ulu Öndər həmişə deyərdi:

-"Biz bu gün böyük iftixar hissi ilə deyirik ki, Azərbaycan Respublikasının milli ordusu - respublikamızın milli təhlükəsizliyini, əhalimizin əmin-amanlığını və mühafizəsini təmin etmək üçün, ölkəmizin sərhədlərinin qorunması, ərazi bütövlüyünün, torpaqlarının müdafiə edilməsi üçün Azərbaycanın layiqli Silahlı Qüvvələri vardır".

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev 2003-cü ildən başlayaraq ordu sahəsində əsaslı şəkildə islahatlar həyata keçirib. Orduya ən müasir silahlar alınıb, yeni hərbi hissələr tikilib və ya əsaslı şəkildə təmir edilib. Bir sözlə ordumuzun maddi-texniki bazası gücləndirilib. Beləcə ordumuz bu gün dünyanın 50 güclü ordusu sırasındadır.

Görülən bütün işlər öz bəhrəsini verdi, belə ki, 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Ermənistan Silahlı Qüvvələrinin növbəti təxribatı ilə mövqelərimiz və yaşayış məntəqələrimiz intensiv artilleriya atəşinə məruz qaldı. Ordumuzun bölmələri əks-həmlə ilə təxribatın qarşısını aldı. Bu, "Aprel döyüşləri" kimi tarixləşdi. Döyüşlər Azərbaycan Ordusunun qələbəsi ilə nəticələndi. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı kəndi, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonunun Madagiz kəndi istiqamətində bəzi mövqelər düşməndən azad olundu. Bununla da cinayətkar erməni rəhbərlərinin keçilməz erməni səngərləri haqqında mifi alt-üst edildi. Ali Baş Komandan bu qələbə haqda demişdir:

-"Aprel döyüşləri bizim şanlı hərbi qələbəmizdir, dövlətimizin, xalqımızın,ordumuzun gücünü göstərən qələbədir"

Növbəti qələbəmiz isə 2018-ci ilin may ayında Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisinin və Şərur rayonunun Günnüt kəndi düşməndən azad olunmasıdır.

Bütün bunlar Azərbaycan Ordusu gündən-günə öz qüdrətini artırmasının nəticəsi idi.

27 sentyabr 2020-ci il. 06:00-dan başlayaraq Ermənistan Silahlı Qüvvələri cəbhəboyu ərazilərimizi iri-çaplı silahlarla atəşə tutdu. Buna cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatı həyata keçirdi və beləcə bizim "44 günlük" şanlı Vətən Müharibəmiz başladı. Bu müharibədə biz düşmənin belini qırdıq, düşmən ordumuzun qabağımızda diz çökdü.

Düşmən 30 il ərzində yaratdığı səngərləri, istehkamları bizim ordumuz 44 gün ərzində yarıb keçdi.

Belə ki, ordumuz ardıcıl olaraq Cəbrayıl şəhərini, Füzuli şəhərini, Zəngilan şəhərini, Qubadlı şəhərini və Şuşa şəhərini işğaldan azad etdi. Bu əməliyyatlardan isə ən çətini Şuşa şəhərinin işğaldan azad edilməsi oldu. Ordumuz Şuşanı ağır silahlarla deyil əliyalın bir şəkildə sıldırım qayaları aşaraq işğaldan azad etdi.

Nəticədə, Ermənistanın Baş Naziri məcbur olub 10 noyabr 2020-ci ildə kapitulyasiya aktına imza atdı. Beləliklə Kəlbəcər, Laçın və Ağdam rayonu bir güllə belə atmadan bizə geri qaytarıldı.

Cənab Prezident İlham Əliyev demişdi: "Biz Qarabağı dirçəldəcəyik". Bəli, bu belə də oldu. 30 il ərzində ermənilərin dağıtdığı torpaqları biz yenidən bərpa edirik. Bu gün işğaldan azad edilmiş ərazilərimizə mərhələli şəkildə xalqımız geri qayıdır. Bu gün əminliklə deyə bilərik ki, Qarabağımız öz keçmiş əzəmətinə və firavanlığına yenidən qovuşur.

19 sentyabr 2023-cü ildə Ermənistan Silahlı Qüvvələri mövqelərimizi yenidən intensiv atəşə tutdular. Beləliklə Azərbaycan ordusunun cəbhədə "antiteror" tədbirləri adlandırılan Və 24 saat davam edən əməliyyat, 20 sentyabr 2023-cü ildə dayandırıldı. Razılığa əsasən erməni silahı birləşmələri həmin əraziləri silah-sursatlarını orada qoyaraq tərk etməli idi. Bu, belə də oldu. 21sentyabr 2023-cü ildə Yevlax şəhərində erməni diplomatlarla görüş baş tutdu. Nəticədə Xankəndi və digər düşmən tərəfindən işğal edilmiş digər şəhər, qəsəbə və kəndlərimiz bizə geri




qaytarıldı. Bu böyük bir qələbə idi. Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev həmin bölgələrə səfər etdi və orda Azərbaycanın üçrəngli bayrağını qaldırdı.

Sevindirici haldır ki, bu gün Azərbaycan xalqına qarşı zülm etmiş erməni terrorizminin başçıları həbs olunaraq Azərbaycana gətirildi. Şübhəsiz ki, onlar orada layiqli cavablarını alacaqlar.

Qarabağımızın tam azad edilməsi və ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi bir daha dünyaya göstərdi ki, Azərbaycan güclü dövlətdir və Azərbaycanın güclü ordusu var!

***Əmir İMANOV***
***Naxçıvan şəhər M.T.Sidqi adına 4 nömrəli tam orta məktəbin X sinif şagirdi***